AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2023, № 2 (276), 30-39
doi.org/10.48445/j3952-7156-3432-k

**M E T O D İ K A**

# Azərbaycan dili dərslərində müasir təlim metodları ilə dil qaydalarının öyrədilməsi yolları

***Könül Məmmədova***
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası. Azərbaycan.
E-mail: könül.1970@mail.ru
https://orcid.org/0000-0001-8664-4912

**XÜLASƏ**
Məqalədə Azərbaycan dili dərslərində müasir təlim metodları ilə dil qaydalarının öyrədilməsi metodikasından bəhs olunur. Azərbaycan dilinin ümumtəhsil məktəblərində tədris olunması şagirdlərdə nitq mədəniyyətinin inkişafına şərait yaradır. Bu fənn vasitəsi ilə şagirdlər Azərbaycan dilinin səs, lüğət tərkibinə bələd olur, dil qaydalarını mənimsəyir, ana dilini mükəmməl öyrənməklə yalnız bu fənnin deyil, digər fənlərin də tələblərini asanlıqla qarşılayırlar. Kurikulum ölkəmizdə tətbiq olunandan bəri ibtidai siniflərdə də Azərbaycan dili fənni bu təhsil proqramına uyğun tədris edilir. Linqvistik biliklərin mənimsənilməsi şagirdlərin yazılı və şifahi nitq qabiliyyətlərinin inkişafında mühüm rol oynayır. Bu, eyni zamanda nitqin mədəniliyini qavramaq üçün qoyulan tələblərin, fərdi və funksional üslubların əsas xüsusiyyətlərinin mənimsənilərək müqayisə olunmasına və təcrübədə tətbiqinə zəmin yaradır.

**AÇAR SÖZLƏR**
müasir təlim metodları, dil qaydaları, məzmun xətti, linqvistik biliklər, ümumi təhsil

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 22.03.2023
qəbul edilib: 25.05.2023

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2023, NO. 2, VOL. 276, 30-39
doi.org/10.48445/j3952-7156-3432-k

**M E T H O D S**

# Ways of teaching language rules using modern teaching methods in Azerbaijani language classes

***Konul Mammadova***
Doctor of Philosophy in Pedagogy, Associate professor. Azerbaijan State Pedagogical University, Department of Azerbaijani language and its teaching technology. Azerbaijan.
E-mail: konul.1970@mail.ru
https://orcid.org/0000-0001-8664-4912

**ABSTRACT**
The article talks about the methodology of teaching language rules with modern teaching methods in Azerbaijani language classes. Teaching the Azerbaijani language in secondary schools creates conditions for the development of speech culture in students. Through this subject, students become familiar with the sound and vocabulary of the Azerbaijani language, learn the rules of the language, and by learning their mother tongue perfectly, they can easily meet the requirements of not only this subject, but also other subjects. Since the introduction of the curriculum in our country, the subject of the Azerbaijani language has been taught in primary classes according to this educational program. The acquisition of linguistic knowledge plays an important role in the development of students' written and oral speech abilities. At the same time, it lays the groundwork for mastering and comparing the basic features of individual and functional styles and applying them in practice.

**KEYWORDS**
modern teaching methods, language rules, content line, linguistic knowledge, general education

**ARTICLE HISTORY**
Received: 22.03.2023
Accepted: 25.05.2023

## Giriş / Introduction

Azərbaycan dilinin şəxsiyyətin inkişafı və formalaşmasında mühüm rolu vardır. Ana dilinə sevgi və ona yiyələnmənin əsası ilk olaraq ailədə qoyulur. Yəni şagirdlərdə ana dili haqqında ilkin təsəvvürlər məktəbdən əvvəl ailədə formalaşdırılır. Təhsil müəssisəsində isə dil qaydaları daha sistemli və elmi bilik səviyyəsində öyrədilir. Ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin tədris olunması şagirdlərdə nitq mədəniyyətinin inkişafına şərait yaradır. Bu fənnin köməkliyi ilə şagirdlər Azərbaycan dilinin səs, lüğət tərkibinə bələd olur, dil qaydalarını mənimsəyirlər. Ana dilini mükəmməl öyrənməklə təkcə bu fənnin deyil, həmçinin digər fənlərin də tələblərini asanlıqla qarşılayırlar. Kurikulum ölkəmizdə tətbiq olunandan bəri ibtidai siniflərdə də Azərbaycan dili fənni bu təhsil proqramına uyğun tədris edilir. Kurikuluma əsasən Azərbaycan dili fənni üzrə dörd məzmun xətti müəyyən olunub:

1. Dinləyib-anlama və danışma;
2. Oxu;
3. Yazı;
4. Dil qaydaları [1].

Məlumdur ki, şagirdlər I sinifdən etibarən linqvistik bilikləri mənimsəməlidirlər. Bu iş məhz “Dil qaydaları” məzmun xəttinin öhdəsinə düşür.

**I sinifdə şagird:**

- səsləri və hərfləri adlandırır, onları fərqləndirir;
- sait və samit səsləri tanıyır;
- sözləri hecalara ayırmağı bacarır;
- kiçik və böyük hərfləri fərqləndirir;
- əlifba sırasını əzbər bilir;
- tək və cəm anlayışlarını izah edir;
- əlamət, ad, hərəkət ifadə edən sözləri tanıyır;
- cümləni əsas əlamətlərinə görə sadalayır;
- cümlənin məqsəd və intonasiyaya görə növlərini fərqləndirir [1].

**II sinifdə şagird:**

- dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır;
- müşahidə etdikləri, eşitdikləri, oxuduqları haqqında danışığında, dioloji nitqində vəziyyətə uyğun gələn nitq etiketlərindən, mimika və jestlərdən istifadə edir;
- mətnlərdəki əksmənalı və yaxınmənalı sözləri fərqləndirir, frazeoloji birləşmələrin mənasını izah edir;

- kiçikhəcmli mətnləri sürətli və düzgün oxuyur, əsas fikrə münasibət bildirir, mətni hissələrə ayırır, bədii mətni janrlara görə fərqləndirir;
- orfoqrafiya və hüsnxət qaydalarına əməl etməklə müşahidə və ilkin fikirlər əsasında kiçikhəcmli inşa və əməli yazılar yazır;
- sait və samit səsləri fərqləndirir, sözlərin sətirdən-sətrə keçirilmə, böyük hərflə yazılma qaydalarını tətbiq edir;
- sözlərin yazılış və deyilişini fərqləndirmək üçün lüğətlərdən istifadə edir [1].

**III sinifdə şagird:**

- zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir;
- sait və samit səsləri fərqləndirir;
- sözlərin sətirdən-sətrə keçirilmə qaydalarını tətbiq edir;
- sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun tətbiq edir;
- sözləri mənalarına görə qruplaşdırır;
- cümlələrdə durğu işarələrindən istifadə edə bilir [1].

**IV sinifdə şagird:**

- sadə formada fonetik təhlil aparır;
- rast gəldiyi yeni sözlərin yazılışına dair qaydaları müəyyən etmək üçün sorğu kitabları, lüğət və kataloqlardan istifadə edir;
- cümlədə cəm şəkilçisindən istifadə edə bilir;
- köməkçi nitq hissələri ilə əsas nitq hissələrini fərqləndirə bilir;
- cümlədə baş üzvlər və ikinci dərəcəli üzvlərin rolunu müəyyən edir;
- cümlə və onun növləri ilə əlaqədar təqdimatlar edir [6, s.31-32].

Azərbaycan dili fənninin tədrisində qarşıya qoyulan əsas məqsəd şagirdlərə dil qaydalarının mənimsədilməsidir. Dil qaydalarının öyrədilməsində ən səmərəli üsul müasir təlim metodları hesab edilir. Ayrı-ayrı bölmələrin tədrisində fərqli metodlardan istifadə oluna bilər. Dil qaydaları məzmun xətti Azərbaycan dilində qaydaların öyrənilməsində proqram rolunu oynayır. Müəllim artıq şagirdlərin tədris ilinin sonunda yiyələnməli olduğu bilik və bacarıqları öncədən bilir.

İbtidai siniflərdə daha çox bəhs olunan və şagirdlər üçün xüsusilə maraqlı olan bölmə morfologiya hesab edilir. Bildiyimiz kimi, bu bölmə nitq hissələrindən bəhs edir. Şagirdlər bölmə ilə bağlı dil qaydalarını hələ təlimin birinci mərhələsində öyrənməyə başlayırlar. Bu, "savad təlimi" dövrü adlanır. Bu mərhələdə şagirdlər şifahi nitq bacarıqlarından istifadə etməklə kiçik təqdimatlar edir, şəkillər üzərində işləyir, sözlərin müxtəlif funksiyalar yerinə yetirdiyinin şahidi olurlar. Onlar bu təcrübələrə əsasən dərk edirlər ki, müxtəlif sözlər birləşərək cümlə əmələ gətirir. İlk dərsdə şagirdlər tanışlıq mərhələsini keçir və kitabdakı şəkilləri adlandırarkən kim?

və nə? suallarından istifadə edirlər. Növbəti dərslərdə qayda davam etdirilir. Nəticədə şagirdlər əşyaların kim? və ya nə? sualına cavab verməsini nümunələr əsasında mənimsəyirlər.

Nəzərə almaq lazımdır ki, dərs vəsaitlərində əlamət bildirən sözlərin öyrədilməsi üçün verilən tapşırıqlar çətin olduğundan, onların bütövlüklə yerinə yetirilməsi qeyri-realdır. Müxtəlif məzmunda verilən şəkillərdə tapılması tələb olunan suallar həddən artıq mürəkkəb olduğundan onun həlli I siniflər üçün çətinlik yaradır. Bu baxımdan belə tapşırıqlar verilərkən müəllim çalışmalıdır ki, istiqamətverici suallardan istifadə etməklə şagirdlərin yükünü azaltsın. Mənasına görə söz qrupları I sinifdə tədris ili boyunca davam etdirilir. Bu iş hər bir hərfin və ya səsin öyrədilməsi prosesində təkrarlanır. Öyrənənlər dərs vəsaiti boyu verilən şəkilləri adlandırmağa, əlamətini tapmağa davam edirlər.

II sinifdə morfologiya üçüncü bölmədən başlayır. Bu bölmədə söz və onun mənasından bəhs olunur. İlk olaraq girişdə mövzu ilə bağlı məlumat verilir. Sonra şagirdlərə nümunə üçün tərkibində say, əlamət, hərəkət bildirən sözlərdən ibarət olan cümlə verilir və onlar sözlərin hansı suala cavab verdiyini, nə ifadə etdiyini (ad, əlamət, hərəkət, say) müəyyən edirlər [10, s.12].

Məsələn: “Balaca bacım beş qırmızı alma almışdı”. Bu cümlədə...

– balaca *hansı?* sualına cavab verir, əlamət bildirir.
– bacım *kim?* sualına cavab verir, ad bildirir.
– beş *neçə?* sualına cavab verir, say bildirir.
– qırmızı *necə?* sualına cavab verir, əlamət bildirir.
– alma *nə?* sualına cavab verir, ad bildirir.
– almışdı *nə etmişdi?* sualına cavab verir, hərəkət bildirir.

Burada sözlərin məna qrupları haqqında ümumi məlumat verilmişdir. Sonrakı dərslərdə hər bir məna qrupu geniş şəkildə tədris ediləcəkdir. Öyrənənlər ad bildirən sözləri dərk etdikdən sonra onlar üçün yeni dil qaydalarını mənimsəmək çətin olur. Əvvəlki nümunədə şagirdlər başqa məna qrupuna aid olan sözləri müşahidə etmişdilər. Bu səbəbdən də şagirdlərin təfəkküründə biliklərin dəqiqləşməsi üçün “digər məna qrupuna daxil olan sözlər ad bildirən sözlərlə bağlı olur” fikri bir daha öz təsdiqini tapır.

Elmi terminləri başa düşmək ibtidai sinif şagirdləri üçün çətin olduğundan nitq hissələri onlara mənasına uyğun adlarla öyrədilir. III sinifdən etibarən, nitq hissələri elmi adlarla izah edilir. İsim əşyanın adını, sifət əşyanın əlamətini, say əşyanın sayını, feil əşyanın hərəkətini bildirən söz kimi izah edilir. I və II siniflərdə şagirdlərə

incəlikləri izah etmək onlarda çaşqınlıq yaradacağına və tədris yükünü artırıb keyfiyyəti aşağı salacağına görə əşyanın əlamət bildirməsi həm zərfə, həm də sifətə aid edilir. Amma dərslikdə sifət başlığı altında öyrədilən mövzu göründüyü kimi, təkcə sifətləri nəzərdə tutur. Bunu ayırd etmək üçün müəllim şagirdlərə mütləq sifətlə ismin oxşar cəhətlərini izah etməlidir.

Sifətə aid dil qaydalarının I və II siniflərdə öyrədilməsindən geniş formada bəhs edək. I siniflərdə sifətin tədrisinə əlifbaya hazırlıq mərhələsində başlanılır. Öyrədənin yardımı ilə uşaqlar elə ilk mövzudan əşyaların sifətin hansı məna qrupuna aid olduğunu öyrənir və yadda saxlayırlar. Bu mövzuda müəllimlərin ən böyük köməkçisi şəkillərdir. Şagirdlər şəkillərə sual verərək onun sifətə aid xüsusiyyətini təyin edirlər. Oxumağı və yazmağı bacarmayan, bilikləri qrafik və şəkillərdəki işarələrin köməyi ilə əldə edən şagirdlərin bu mərhələdə müəllimin zəngin təcrübəsinə və fasiləsiz əməyinə ehtiyacı olur.

Dərs prosesində şəkillərlə işləyən zaman müxtəlif motivasiya formalarından istifadə olunur. Onlardan birini nümunə göstərək:

Fasilitator-müəllim kitabdakı şəkli göstərir və soruşur:

– Şəklə baxanda nə görürsünüz?
– Şəkildə bağça və qız görürük.
– Gəlin, qıza hər hansı bir ad qoyaq.

Şagirdlərin razılığı ilə ən sevilən ad seçilir və qıza Lalə adı verilir.

– Lalə bağçada nə edir?
– Lalə gülləri sulayır.
– Güllər hansı rəngdədirlər?
– Güllər sarı, qırmızı, bənövşəyi rəngdədirlər.

Beləcə, dərslikdəki başqa şəkillərə də suallar verilərək onları bir-birindən ayıran əlamətlər aşkara çıxarılır. Məsələn, şagirdlər *"t"* hərfinin və səsinin öyrədilməsi zamanı *təmiz, təzə paltar, tərs adam, tüstülü baca* və s., *"n"* hərfinin və səsinin tədrisi vaxtı *nəm, qanlı köynək, nanəli konfet* və s., *"g"* hərfinin öyrədilməsi zamanı *gözəl qız, göy çəmən, gülən adam* və s. birləşmələrin tərkibində əlamət və keyfiyyət bildirən sözləri ayırd etməyi bacarır, sifətə aid məlumatlarını yetərincə genişləndirirlər. Bu nitq hissəsi ilə bağlı dil qaydalarının öyrədilməsi sonrakı məşğələlərdə də davam etdirilir. Verilən şəkillərə baxaraq şagirdlər söhbətin nədən getdiyini, şəklin hərəkət, yoxsa əşyaya aid olduğunu ayırd edə bilirlər.

Şəkillər üzərində əlamət bildirən sözlərin öyrədilməsi əlifba təlimi dövründə də davam etdirilir. Bu məqamı xüsusi vurğulamaq vacibdir ki, rənglər əlamət bildirən sözlərin böyük bir hissəsini təşkil etdiyinə görə onların semantikası üzərində

dayanmaq çox əhəmiyyətlidir. Dərsliklərdə verilən iki şəhərin fərqli zamanlardakı görüntüsü vasitəsi ilə şagirdlər həm həmin şəhər haqqında maraqlı məlumat əldə edir, həm də bir neçə əlamət bildirən sözün tapılması tələb olunur ki, bunu da sxem və şəkillərə baxmaqla müəyyən etmək mümkün olur.

Beləliklə, bu nəticəyə gəlirik ki, şagirdlər I sinfin sonunda sifəti digər nitq hissələrindən fərqləndirir, sözün hansı suallara cavab verdiyini yadda saxlayır, sifətlə ismin əlaqəsini dərk edirlər. Həmçinin sifətlərin leksik mənalarını ilkin təsəvvür edir, rəng, dad, keyfiyyət, ölçü bildirən sözlərə aid nümunələr gətirməyi öyrənir və bu sözlər vasitəsi ilə cümlələr qurmağı bacarırlar.

II sinifdə dil qaydalarının mənimsədilməsi üçün çox az vaxt (2 saat) ayrılsa da, bu pillədə şagirdlər əvvəlki ildə öyrəndikləri sifətə aid bilikləri genişləndirir, bu nitq hissəsinin sadə tərifi, eyni zamanda hansı suallara cavab verməsi ilə tanış olur, onu dərk edir və nitqlərində (yazılı və şifahi) başqa sözlərdən ayırmağı bacarırlar. Birinci dərsdə sifət haqqında başlıca məqsəd aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Sifəti tədris edərkən müəllim motivasiya məqsədi ilə bir-birinə oxşayan iki bina şəkli göstərib şagirdlərdən soruşur (şəkillər forma, rəng, ölçü baxımından fərqlənir).

Sizin fikrinizcə verilən şəkillər bir-birindən nəyə görə fərqlənir?

Uşaqlar gördükləri fərqləri sayır, uyğun gələn sualları verirlər. Bununla yanaşı şagirdlər qeyd edirlər ki, binalardan biri düzbucaqlı, digəri isə kvadrat şəklindədir, binalardan biri hündür, digəri isə alçaqdır, binalardan biri yaşıl, digəri isə çəhrayı boyanıb. Müəllimin köməkliyi ilə şagirdlər başa düşürlər ki, saydıqları fərqlər sırf əlamət bildirən sözlərdir. Daha sonra tədqiqat sualı müəyyənləşdirilir. Əşyalar bir-birindən nəyinə görə fərqləndirilir?

Dörd qrupdan təşkil olunmuş qrup işi üzrə tədqiqat aparılır.

**I qrup:**

Təqdim olunan əşyanın əlamətini yazır və ayrı-ayrılıqda cümlədə işlədir. Bu zaman şagirdlərə elə sözlər seçilib verilməlidir ki, onların daha öncədən həmin sözlər haqqında anlayışları olsun. Sonra həmin sözlər dörd cümlə daxilində işlədilir.

1. Yaşıl alma insan sağlamlığı üçün faydalıdır.
2. Göydə çoxlu ağ bulud topalaşmışdı.
3. Yazda şaftalı ağacı çəhrayı çiçəklər açır.
4. Bənövşəyi mənim ən sevdiyim rəngdir.

**II qrup:**

Bu rənglərə uyğun gələn tanıdığınız əşyaları qeyd edin.

1. Çəhrayı – don, qələm, gül;
2. Ağ – çiçək, daş, köynək;

3. Göy – qapı, səma, kitab;
4. Qara – toyuq, ayaqqabı, dəftər, tülkü.

Bu sözlərdən ikisini cümlədə işlədin.

1. Ayaqqabı ayağımı sıxırdı.
2. Kitab 324 səhifədən ibarətdir.

**III qrup:**

Şəkildə verilən əşyaların əlamətlərini yazın.

Qapı – düzbucaqlı, böyük, sarı;

Ağac – hündür, yaşıl, yarpaqlı;

Qazan – balaca, qırmızı, yumru;

Gül – ağ, tikanlı, təzə.

**IV qrup:**

Verilmiş mətndəki sözlərdən sifətləri seçir və sual verir, həmin sözün sinonimlərini tapırlar. Məsələn: səma-göy; toyuq-cücə; qara-siyah; balaca-xırda-kiçik; yumru-girdə; təzə-tər-yeni; hündür-uca və s.

Daha sonra isə müasir dərsin mərhələlərindən olan məlumat mübadiləsi aparılır, qrup üzrə işin nəticəsi bütün şagirdlər tərəfindən yoxlanılır və lazım olarsa əlavələr edilir. Bu mərhələdən sonra dərs, dərslikdə sifətə aid verilən çalışmalarla davam etdirilir. Mövzunun sonunda öyrənənlərə aydın olur ki, sifət geniş anlayış olub əşyaların əlamətlərini bildirir və onların oxşar və ya fərqli xüsusiyyətlərini ayırd etmək üçün mühüm cəhətdir. Əlamət bildirən sözlər aşağıdakı məna qruplarına bölünür:

1. Ölçü bildirən sifətlər (böyük, balaca);
2. Dad bildirən sifətlər (acı, şirin);
3. Keyfiyyət bildirən sifətlər (yaxşı, pis);
4. Rəng bildirən sifətlər (yaşıl, qırmızı, sarı);
5. Qoxu bildirən sifətlər (ətirli, tünd);
6. Forma bildirən sifətlər (yumru, uzunsov).

Sifət isim ilə məna-qrammatik cəhətdən rabitəli olur. Əlamət bildirən sözlər necə?, nə cür?, hansı? suallarından yalnız birinə cavab verir. Sifətə aid əvvəlcədən öyrənilən biliklər genişləndirilərək möhkəmləndirilir. Dərs zamanı qarşıya qoyulan məqsədə çatmaq üçün şagirdlərin lazım olan resurslarla təmin olunması vacibdir.

Say elə bir mövzudur ki, bu haqda biliklərə şagirdlər məktəbəqədər yaşlarından yiyələnirlər. Ona görə də II siniflər bu mövzunu öyrənərkən onu qavramaqda çətinlik çəkmirlər. Sayı öyrənərkən şagirdlər onu başqa nitq hissələrindən seçməyi, ona sual verməyi bacarır, dərk edirlər ki, say əşyanın miqdarını, sırasını bildirir və neçə?, nə

qədər?, neçənci? suallarından birinə cavab verir. Sonra isə verilən nəzəri biliklərlə yanaşı, praktik çalışmaların həlli həyata keçirilərək şagirdlərdə müəyyən bacarıqlar formalaşdırılır.

**Nəticə / Conclusion**

Azərbaycan dili təlimində aparılan islahatlar məzmun xətlərinin yenidən qurulması və təlim metodlarının optimal seçilməsi əsasında aparılmalıdır. Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin qazanacağı bilik və bacarıqları daha aydın təsvir etməyə və onları sistemləşdirməyə xidmət edir. Respublikanın ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin tədrisinin əsas məqsədi şagirdlərdə hərtərəfli nitq bacarıqları, yəni nitq mədəniyyəti formalaşdırmaqdan ibarətdir. Bu o deməkdir ki, təhsilini başa vurmuş hər bir şəxs aydın və səlis nitqə malik olmalı, öz fikir və düşüncələrini şifahi və yazılı formada sərbəst ifadə etməyi, başqaları ilə ünsiyyət qurmağı, müəyyən problemlə bağlı müzakirə etməyi və müəyyən məqamda söylənilmiş mülahizələri ümumiləşdirməyi bacarmalıdır.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. (2020). Bakı, 29 sentyabr.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). Bakı, Azərbaycan məktəbi, № 5, s.6-17.
3. Azərbaycan Respublikasının dövlət dili haqqında Qanunu. (2003). Bakı, 2 yanvar.
4. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında (2013-2020-ci illər). (2012). Bakı, 23 may.
5. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. (2009). Bakı, 13 yanvar.
6. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). (2008). Bakı, Mütərcim. 495 s.
7. Cəfərova N. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı, ADPU. 404 s.
8. Cəfərova N. (2019). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı, ADPU. 430 s.
9. İsmayılov R., Nurullayeva Ü. (2021). Azərbaycan dili. (2-ci sinif). Dərslik (2-ci hissə). Bakı, Təhsil NP MMC. 104 s.
10. İsmayılov R., Nurullayeva Ü. (2021). Azərbaycan dili (2-ci sinif). Müəllim üçün metodik vəsait. Bakı, Radius MMC.